*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 8 fevral 2020-ci il | № 10 (2428) | Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Sizi görməyimə çox şadam. Bir daha xoş gəlmisiniz. Mən bizim ötən il sonuncu görüşümüzü xatırlayıram. Bizim əməkdaşlığımızla bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkanımız oldu. Mən, həmçinin bildirmək istərdim və çox şadam ki, NATO və Rusiya hərbi komandanları arasında görüşlərin Bakıda keçirilməsi artıq bir ənənədir. Biz görüş yeri kimi Azərbaycanı seçdiklərinə görə NATO və Rusiyaya çox minnətdarıq. Düşünürəm ki, bu, çox doğru seçimdir. Eyni zamanda, bunu bizə olan etimadın, hörmətin əlaməti hesab edirik. Çünki istənilən başqa bir ölkə seçilə bilərdi. Lakin Bakının seçilməsi o deməkdir ki, bizim, həqiqətən də, çox güclü tərəfdaşlığımız var. Mən əminəm ki, sizin bu gün həmkarınızla keçirəcəyiniz görüş çox səmərəli olacaq, dünyada və regionumuzda sülh və sabitliyə xidmət edəcək. Əslində, bizim də məhz buna ehtiyacımız var. Çünki ölkəmiz üçün əsas narahatlıq doğuran regional sabitlikdir. Bizdə potensial risklərin daxili mənbələri mövcud deyil. Ona görə də baş verə biləcək potensial risklər sərhədlərimizdən kənarda yarana bilər. Əlbəttə, bu mütəmadi görüşlər, əminəm ki, çox mühüm məsələlərin müzakirəsi dünyada və regionda sabitliyə yardımçı olacaq.

İkitərəfli əlaqələrimizə gəldikdə, demək istərdim ki, biz əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Mən dəfələrlə NATO-nun qərargahında olmuşam, müxtəlif baş katiblərlə görüşmüşəm. Mənim baş katib Stoltenberqlə sonuncu görüşüm çox səmərəli, uğurlu oldu. Mənim, həmçinin Şimali Atlantika Şurasında çıxış etmək imkanım oldu. Sonra söz verilən səfirlərin, çıxış edənlərin hamısı Azərbaycan haqqında, siyasətimiz, müstəqil siyasətimiz, həyata keçirdiyimiz islahatlar və tərəfdaşlığımız haqqında çox müsbət danışdılar. Çünki bildiyiniz kimi, Azərbaycan əvvəldən Əfqanıstanda sülhyaratma əməliyyatlarında iştirak edib. Artıq demək olar ki, 20 ildir bizim orada hərbçilərimiz var və biz hərbçilərin sayını artırmışıq. Biz çox mühüm nəqliyyat və logistika dəstəyi, hava məkanımızdan uçuş imkanını, həmçinin nəqliyyat şəbəkəmizdən, xüsusilə yaxın zamanlarda açılmış və yüklərin daşınması üçün mühüm vasitə olan Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə imkanını təmin edirik.

Mən, həmçinin sizi məlumatlandırmaq istərdim ki, biz artıq Əfqanıstandan mülki yüklərin tranzit daşınmasına başlamışıq. Bununla da bu ölkənin Avropa bazarlarına yol tapmasına kömək edirik. Biz artıq dəmir yolumuzu Əfqanıstandan keçən Lapis Lazuli dəmir yolu ilə birləşdirmişik. Biz, həmçinin Əfqanıstana texniki və maliyyə dəstəyi göstəririk. Bizim mühüm nailiyyətlərimizdən biri olan "ASAN" ictimai xidmətlər mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərməyə başlayıb. Bu, çox səmərəli, müasir sistemdir, demək olar ki, 300 ictimai xidmət bir yerdə cəmləşib. Əfqanıstan Prezidenti burada olanda bu sistemlə tanış oldu və bizdən onu orada yaratmağa kömək göstərməyimizi xahiş etdi və biz bunu etdik.

Biz mülki dəstəyimizi, NATO ilə tərəfdaşlığımızı davam etdirəcəyik. Mənim köməkçim Hikmət bu yaxınlarda NATO-nun qərargahında olub. O, mənə məlumat verdi ki, səfər çox uğurlu keçib. Onun görüşdüyü səfirlərin hamısı ölkəmiz barəsində çox xoş sözlər deyiblər və Azərbaycanı etibarlı tərəfdaş hesab edirlər, həmçinin bizim Əfqanıstandakı sülhyaratma əməliyyatlarına töhfəmiz və gələcək tərəfdaşlıq barəsində danışıblar.

Beləliklə, sizi bu barədə məlumatlandırmaq və bir daha "Xoş gəlmisiniz!" demək istərdim. Bugünkü görüşünüzün uğurlu keçməsini arzu edirəm.

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Volters dedi:

- Çox sağ olun, cənab Prezident. Mən təhlükəsizlik və sülh məsələlərində aparıcı mövqedə olmaq istəyinizə görə Sizi və ölkənizi təqdir edirəm. Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına verdiyiniz töhfənin davam etdirilməsi, əsgərlərinizin orada müşahidə etdiyimiz xidməti tərəfimizdən yüksək qiymətləndirilir. Bir az bundan əvvəl Sizin Baş Qərargah rəisi ilə görüşmək imkanım oldu və bu yaxınlarda Əfqanıstandakı səhra komandiri ilə Həmid Kərzai beynəlxalq hava limanında əsgərlərin xidmətini müzakirə etdim. Onlar cəsarətlə xidməti davam etdirirlər və qeyd etməliyəm ki, NATO-nun Əfqanıstana cəlb edilməsi ilə bağlı məsləhətləşmələr zamanı həmişə bütün əsgərlərinizin mühafizəsi məsələsi nəzərə alınacaqdır. Biz xalqınızı və ordunuzu bütün etdiklərinizə görə təqdir edirik. Bu, Əfqanıstan sərhədlərinin xaricindən terror dəstələrinin ölkəyə daxil olmasının qarşısını almaqda bizim səylərimizə çox böyük təsir göstərir. Hesab edirəm ki, missiya yaxşı fəaliyyət göstərməyə davam edir və Sizin əsgərləriniz bu missiyanın böyük bir tərkib hissəsidir.

Prezident İlham Əliyev:

- Çox sağ ol.

# Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:

- Hörmətli Valeri Vasilyeviç, xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Şadam ki, sizin NATO-dakı həmkarlarınızla mühüm görüşlərin keçirilməsi ilə əlaqədar Azərbaycana gəlişiniz müntəzəm xarakter daşıyır. Həmçinin Bakının Rusiya və NATO-nun ali hərbi komandanlığının ənənəvi görüş yerinə çevrildiyinə görə bir daha Rusiya tərəfinə minnətdarlığımı bildirmək istərdim. Bu proses artıq üç ildir ki, davam edir və əlbəttə, Bakının seçimi bizim üçün çox əhəmiyyətli və dəyərlidir. Biz bunu bizə etimad və hörmət əlaməti kimi qəbul edirik və əlbəttə, həmçinin hesab edirik ki, bu görüşlər həm bizim regionda, həm də dünyada riskləri azaltmağa çox ciddi kömək edir. Buna görə regionda və dünyada gələcək vəziyyət sizin həmkarınızla bugünkü görüşünüzdən asılı olacaq.

Əlbəttə ki, hər belə tədbir bir daha görüşmək və hərbi-texniki sahədə əməkdaşlığın gündəliyinə nəzər salmaq üçün yaxşı imkandır. Yəni, bizim sizinlə ötən dəfə, ötən il də qeyd etdiyimiz kimi, yaxşı nəticələrimiz, münasibətlərin tarixi, həm də gələcək üçün planlarımız var. Əlbəttə, biz bu istiqamətdə, həmçinin hərbi sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə gəldikdə, qarşılıqlı fəaliyyəti möhkəmləndirmək işində çox uğurlu keçən ilə yekun vurmaq olar. Həm mənim Vladimir Vladimiroviç Putinlə və digər rəhbərlərlə müntəzəm görüşlərim, həm də qarşılıqlı səfərlər ölkələrimizin daha da yaxınlaşmasına təkan verib. Biz indi iqtisadi gündəlik üzrə fəal iş aparırıq. Müxtəlif sahələrdə qarşılıqlı fəaliyyəti nəzərdə tutan beş, indi isə daha artıq - yeddi yol xəritəsi reallaşdırılır və hər bir istiqamət üzrə də yaxşı nəticələr var. Ticari-iqtisadi sahədə də yaxşı nəticələr olub. Ötən il əmtəə dövriyyəsi 20 faizdən çox artıb. Nəqliyyat, turizm sahələrində də. Ötən il rekord sayda - 900 mindən çox rusiyalı turist Azərbaycanı ziyarət edib. Ötən ay - yanvarda isə yenə də artım olub. Buna görə də düşünürəm ki, bu il biz asanlıqla milyon həddinə çatacağıq. Bu, əlbəttə ki, məhz ölkələrimiz arasında münasibətlərin göstəricisidir. Çünki rusiyalılar özlərini rahat və vərdiş etdikləri şəraitdə hiss edirlər. Beləliklə, ötən ilin yekunları uğurlu olub. Bu il də sizinlə mühüm görüşdən başlayır. Düşünürəm ki, bu ili də yaxşı nəticələrlə başa vuracağıq. Sizə həmkarınızla yaxşı görüş arzulayıram.

Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov dedi:

- Hörmətli İlham Heydər oğlu, sağ olun. İcazə verin, NATO-nun hərbi rəhbərliyi ilə görüş üçün növbəti dəfə meydan yaratdığınıza görə Sizə təşəkkürümü bildirim. Əslində, yaranan beynəlxalq vəziyyət və sabitliyin olmadığı və gözlənilmədiyi, xüsusən Rusiyanın sərhədləri yaxınlığında da, Yaxın Şərqdə də beynəlxalq terrorizmlə gərginləşən mübarizə şəraitində olan bütün bu çətinliklər həm hərbi rəhbərliyin görüşünün, həm də bir sıra məsələlərin müzakirəsinin zəruriliyini şərtləndirir. Eyni zamanda, bunun fonunda Rusiya və Azərbaycan münasibətləri sevindiricidir. Belə ki, bizim ortaq tariximiz və Sizin söylədiyiniz iqtisadi inkişafla bağlı həmin layihələrin fonunda mehriban qonşuluq münasibətlərimiz, hərbi qurumlarımız arasında qarşılıqlı fəaliyyət, xüsusən hərbi-texniki əməkdaşlıq və Silahlı Qüvvələrimiz arasında digər tədbirlər genişlənir. Çox yaxşıdır ki, bir növ biz hamımız, ordularımız bir ordunun - sovet ordusunun yetirməsidir. Hərbi sahədə münasibətlərimizin yaxınlaşması üçün gələcəkdə də hər şeyi edəcəyik.

*Təlim*

# Qələbəyə təminat - yüksək döyüş hazırlığı

*Azərbaycan Ordusunda şəxsi heyətin döyüş hazırlığı kifayət qədər mühüm bir anlayışdır və geniş tədbirlər kompleksini əhatə edir. Döyüş hazırlığı dedikdə, hərbi əməliyyatlar zamanı heyət və bölmələrin düşmənə üstün gəlməsi üçün lazım olan bilik və vərdişlərin aşılanması nəzərdə tutulur. Beləliklə, şəxsi heyətin yüksək döyüş hazırlığı qələbəyə təminatdır.*





Cəbhə xəttində yerləşən "N" hərbi hissəsinin şəxsi heyəti də döyüş hazırlığı planına uyğun olaraq, taktiki hazırlıq dərslərinə başlamışdı. Komandirdən yeni tapşırıqlarını alan motoatıcı bölmənin şəxsi heyəti təlim yerinə doğru addımlayırdı... Bölüyün çöl təlimlərinin keçirilməsi ezamiyyətdə olduğumuz müddətə təsadüf etdi. Biz də təlimi izləmək şansı qazandıq.

Təlimin rəhbəri leytenant Fərid Süleymanlı bildirdi ki, şəxsi heyət hüquq hazırlığını, ictimai-siyasi hazırlığı sinif dərsi kimi keçir. "Həftədə beş gün isə şəxsi heyətə çöl dərsləri keçirilir. Gördüyünüz kimi, şəxsi heyət hərbi hissənin yaxınlığındakı meşəlik ərazidədir. Taktiki hazırlığımızın bugünkü mövzusu "Motoatıcı bölük hücumda" adlanır. Məşğələ zamanı şəxsi heyətə düşmənlə bilavasitə təmas vəziyyətində hücuma hazırlıq və onun aparılması qaydaları aşılanacaq. Hücum taktiki fəaliyyətin əsas növlərindəndir. Düşməni darmadağın etmək, təyin olunmuş hədləri, rayonları və əraziləri ələ keçirməklə sonrakı fəaliyyət üçün əlverişli şərait yaratmaq məqsədilə aparılır. Bütün bunlar haqqında ayrı-ayrılıqda əsgərlərimizə nəzəri bilikləri öyrədirik. Şəxsi heyət nəzəriyyədə öyrətdiklərimizi təcrübədə tətbiq etməklə döyüş vərdişlərinə yiyələnir. Ayrı-ayrı bölmələr döyüş hazırlığı planına əsasən və dərslərin mövzusuna uyğun olaraq müxtəlif ixtisasların sirlərinə dərindən yiyələnirlər. Motoatıcı bölmənin şəxsi heyəti də hərbi vərdişləri, bilikləri kifayət qədər mənimsəyiblər. Verilən tapşırıqların öhdəsindən gəlməkdə çətinlik çəkmirlər."

Hərbi hissənin zabiti Rail Ağayev bölmə haqqında məlumat verərək bildirdi ki, bu bölmə hərbi hissədə yüksək nizam-intizamı və hazırlığı ilə seçilən bölmələrimizdən biridir. "Çöl dərsləri və məşğələlər təsdiq edilmiş döyüş hazırlığı planına uyğun olaraq keçirilir. Məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışılır. Şəxsi heyət dərslərdə, təlimlərdə fəal iştirak edir. Ona görə də düşmən təxribata cəhd göstərdikdə cəsur, qorxmaz əsgərlərimiz tərəfindən dəqiq atəş zərbələri ilə susdurulur. Əsgərlərimiz komandirlərinin verdiyi əmr və tapşırıqları hər an uğurla yerinə yetirməyə hazırdırlar. Erməni işğalçıları anlamalıdırlar ki, Azərbaycan əsgəri öz mövqeyində möhkəm dayanıb, həmişə ayıq-sayıqdır. Heç nədən qorxmadan, çəkinmədən doğma torpağını, elobasını qoruyur."

Nəticələr göstərdi ki, motoatıcı bölmənin şəxsi heyəti nəzəri cəhətdən mənimsədiyi bugünkü çöl dərsinin mövzusunu təcrübədə uğurla sınaqdan çıxarmağı bacardı. İnanırıq ki, bugünkü sınağın nəticəsi sabah Qələbə ilə tamamlanacaq.

Meşə massivində, təbiətin qoynunda keçirilən təlimməşqlər hələ bir neçə gün davam edəcəkdi... Qələbəmizin təminatçısı olan əsgərlərimizi isə qarşıda böyük sınaqlar və uğurlar gözləyir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə görüşüb

*Fevralın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə işgüzar səfərdə olan NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı və Amerika Birləşmiş Ştatları Silahlı Qüvvələrinin Avropa Komandanı general Tod Voltersin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Qonağı salamlayan general-polkovnik Nəcməddin Sadıkov ötən ilin iyul ayında Bakıda keçirilən görüşü xatırladaraq ölkəmizlə NATO arasında 26 il davam edən əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və hərbi qulluqçularımızın Əfqanıstandakı "Qətiyyətli Dəstək" Missiyasına verdiyi töhfəni diqqətə çatdırıb.

Baş Qərargah rəisi bildirib ki, müxtəlif sahələrdə aparılan Azərbaycan-NATO əməkdaşlığının əsas məqsədi Avro-Atlantik məkanda, həmçinin dünya miqyasında vahid təhlükəsizlik sisteminin yaradılmasında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasıdır.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Nəcməddin Sadıkov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını xatırladaraq məsələnin həlli yolunun beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirməyə məcbur edilməsi olduğunu xüsusi qeyd edib.

Baş Qərargah rəisi NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirərək Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində general Tod Volters Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

General Tod Volters NATO-nun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Qonaq səmimi qəbula və göstərilən qonaqpərvərliyə, həmçinin Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə növbəti görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəislərinin görüşü keçirilib



*Fevralın 6-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.*

Qonaqları salamlayan general-polkovnik Nəcməddin Sadıkov iki ölkə arasında əlaqələrin qurulmasında dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Baş Qərargah rəisi bildirib ki, mayın 9-da Moskvada keçiriləcək Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda Azərbaycan Ordusunun hərbi qulluqçularının iştirakı barədə dövlət səviyyəsində qərar qəbul edilib və bu məqsədlə artıq fəal hazırlıq işləri həyata keçirilir.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik Nəcməddin Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı Valeri Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Sonra tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyətini və əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı Valeri Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə növbəti ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 6-da Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Gennadi Petrika və Saymon Tiller keçiriblər.



# Avropa Parlamentində keçirilən növbəti erməni tədbiri iflasa uğradıldı

Fevralın 5-də Avropa Parlamentinin inzibati binasında Ermənistanın və onun Avropadakı havadarlarının təşkilatçılığı ilə anti-Azərbaycan tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəldən axıradək yalan və saxtalaşdırılmış faktlar üzərində qurulan tədbirin mövzusu isə ötən əsrin 80-90-cı illərində Azərbaycanda yaşamış ermənilərin "acınacaqlı" taleyinə həsr olunub.

Parlamentin məhdud sayda olan otaqlarının birində təxminən 20-25 nəfərin iştirakı ilə baş tutan tədbirdə auditoriyanın böyük əksəriyyəti Ermənistan vətəndaşları və Belçikada yaşayan erməni əsilli şəxslər olub.

"Ədalət və Demokratiya naminə Avropa Erməni Federasiyası" (EAFJD) QHT-sinin təşkilatçılığı və Aİ yanında Ermənistan nümayəndəliyinin dəstəyi ilə təşkil olunan tədbirə Avropa Parlamentinin Sosial-Demokratlar Partiyasının kiprli üzvü Kostas Mavrides ev sahibliyi edirdi. Natiqlər qismində Bakıdan köçmüş ermənilər - Brüsselin Azad Universitetinin müəllimi David Babayev, erməni əsilli ABŞ hüquqşünası Anna Astvatsaturyan-Turkot, eləcə də EAFJD-ın prezidenti Kaspar Karampetyan və Britaniyanın Lordlar Palatasının sabiq üzvü Baronessa Karolayn Koks çıxış ediblər.

Ənənəvi qaydada Azərbaycana qarşı qərəzli və ittiham dolu saxta məlumatlarla yadda qalan çıxışlardan sonra auditoriyada əyləşmiş Belçikanın müxtəlif şəhərlərində təhsil alan azərbaycanlı tələbələr və Brüsseldəki gənclərimiz ermənipərəst tədbirin iştirakçılarına bir sıra suallar ünvanlayıb, Ermənistanın etnik təmizləmə siyasəti, Azərbaycan ərazilərini işğal etməsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş nəsillərin nümayəndələri kimi öz həyat hekayələrini paylaşıblar. Onlar ermənilər tərəfindən müsəlman əhaliyə qarşı 1905, 1918-ci illərdə Bakı, Şamaxı, Quba və s. yerlərdə törədilən qətliamlara istinad edib, 1948-1953-cü illərdə sovet hakimiyyətinin Azərbaycan əhalisinin köçürülməsi faktını xatırladıblar. Azərbaycanlı gənclər ermənilərin yazıq və qurban kimi göstərməyə çalışan kiprli deputatdan və britaniyalı xanımdan Azərbaycanın müasir dünya tarixində qaçqınlar və məcburi köçkünlər problemi ilə üz-üzə qalan ölkələrdən biri kimi qeyd edilməməsinin səbəbini soruşub, natiqləri haqq və ədalətdən danışarkən universal və bitərəf mövqedən çıxış etməyə səsləyiblər. Dağlıq Qarabağ və ətraf rayonlardan didərgin salınmış azərbaycanlıların fundamental hüquqlarının qorunması istiqamətində hansı addımları atdıqlarını sorğu ediblər. Həmçinin nazirlərin sonuncu Cenevrə bəyanatının fonunda keçirilmiş bu tədbirin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli prosesinə töhfə verməsk əvəzinə, mane olduğunu bildiriblər. Bu prosesdə Azərbaycanın konstruktiv mövqeyini bir daha iştirakçıların diqqətinə çatdıran həmyerlilərimiz Dağlıq Qarabağın azərbaycanlı icmasının və həmçinin işğal olunmuş ətraf rayonların əhalisinin öz doğma torpaqlarına qaytarılmasının vacibliyini qeyd ediblər.

Ənənəvi olaraq, Azərbaycan tərəfinin toxunduğu məsələləri öz maraqlarına uyğun şəkildə interpretasiya etməyə çalışan erməni və ermənipərəst natiqlər əvvəl səsləndirdikləri fikirləri bir daha təkrarlamaqla kifayətlənib, problemin əsl mahiyyətindən yayınmağa çalışıblar.

Əslində, Ermənistanın nifrət mesajı verən bu səpkili tədbir keçirməsi təəccüblü deyil. Xarici İşlər nazirlərinin sonuncu Cenevrə görüşündə verilmiş bəyanatın ruhuna əks olaraq, icmaların birgə yaşayışının mümkünsüz olduğunu göstərməyə çalışan Ermənistan beynəlxalq ictimaiyyətin gözündə sülhsevər görünməyə çalışsa da, belə tədbirlərlə, əslində, öz mənfur əməllərini bir daha sübut etmiş olur.

# Polad Bülbüloğlunun 75 illik yubileyi cəbhə bölgəsində qeyd olunub

## Yubilyar "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edilib

*Fevralın 4-də Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun 75 illik yubileyi ilə əlaqədar Müdafiə naziri tərəfindən təsdiq olunmuş plana uyğun olaraq düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdən birində tədbir keçirilib.*



Görkəmli bəstəkar, müğənni və ictimai xadim, Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun 75 illik yubileyi cəbhə bölgəsində təntənəli şəkildə qeyd olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə qonaqlar ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyaraq, xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

Şəxsi heyət qarşısında çıxışında Polad Bülbüloğlu Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərini və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətini nəzərə alaraq "Heydər Əliyev" ordeni ilə təltif edilməsinə görə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığını ifadə edib. P.Bülbüloğlu bildirib ki, Qarabağa, Şuşaya qayıdaraq Cıdır düzündə gözəl tədbirlər keçirmək, "Xarı Bülbül" festivalını yenidən təşkil etmək onun ən böyük arzusudur.



Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğıdan, ordu quruculuğu istiqamətində həyata keçirilən uğurlu islahatlardan danışıblar.

Sonra tədbir iştirakçıları hərbi hissədə xidməti, inzibati binalar və digər obyektlərə baş çəkərək şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olublar.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi konsert proqramından sonra qonaqlar əsgərlərlə birlikdə nahar ediblər.

* * *

Xalq artisti Polad Bülbüloğlu, qızı Leyla, oğlu, gənc dirijor Murtuza, Milli Konservatoriyanın rektoru Səyavuş Kərimi, Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, general-mayor Mayis Bərxudarov, Beyləqan və Xocavənd rayon İcra hakimiyyətlərinin başçıları əvvəlcə "N" hərbi hissəsinə gəliblər. Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani yubilyarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polad Bülbüloğlunun "Heydər Əliyev" ordeni ilə təltif olunması haqqında Sərəncamı təsvir olunan böyük plakatın qarşısında salamlayıb, onu Azərbaycan əsgəri adından ölkənin ən yüksək mükafatına layiq görülməsi münasibətilə təbrik edib.

Sonra qonaqlar hərbi hissədə əsgər və zabitlərin xidməti ilə maraqlanıb, ideoloji otaq, yataqxana, ərzaq anbarı, yeməkxana ilə tanış olub, əsgərlərlə birgə nahar ediblər.

Əsgərlər qarşısında çıxış edən Polad Bülbüloğlu onlara xidmətlərində uğurlar arzulayıb, qələbənin bizim olacağına inamını ifadə edib. Onu "Heydər Əliyev" ordeni ilə təltif etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən P.Bülbüloğlu deyib: "Bu, mənim üçün çox böyük bir mükafatdır. Ömrümün sonunadək çalışacağam ki, bu ordenə layiq olum".

Xalq artistinə hərbi hissənin xatirə hədiyyəsi, polkovnik Abdulla Qurbaninin müəllifi olduğu "Lələtəpə fatehləri" kitabı təqdim olunub. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının çıxışları maraqla qarşılanıb.



75 illik yubileyini cəbhə bölgəsində qeyd etməsindən danışan Polad Bülbüloğlu deyib: "Biz bu nümunəni Prezident İlham Əliyevdən götürürük. O, doğum gününü əsgərlərlə, məcburi köçkünlərlə birgə keçirir. Prezident gözəl bir ənənə yaradıb. Mən də hələ yay aylarında düşünürdüm ki, Prezidentdən nümunə götürüb ad günümü əsgərlərlə bir yerdə qeyd edim. Dünən Prezidentimiz mənə "Heydər Əliyev" ordenini təqdim etdi, ünvanıma çox gözəl sözlər dedi. Mən də fürsətdən istifadə edərək işimə, yaradıcılığıma qiymət verdiyi üçün dövlətimizin başçısına dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, dünən qızım dedi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da "İnstagram" səhifəsində məni təbrik edib. Mehriban xanıma da dərin təşəkkürümü bildirirəm. Çox duyğulandım".

Həmin gün Beyləqan Olimpiya İdman Kompleksində Polad Bülbüloğlunun "Gəl, ey səhərim!" adlı konserti olub. Əvvəlcə Xalq artistinin yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub. Rusiyanın Xalq artisti Sergey Skripkanın rəhbərliyi altında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Polad Bülbüloğlunun milyonların sevə-sevə dinlədiyi mahnıları səslənib. Gecədə Polad Bülbüloğlunun oğlu Murtuza Bülbülün dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin "Rapsodiya"sı təqdim olunub.



Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək Polad Bülbüloğlunu görkəmli bəstəkar və müğənni, məharətli diplomat, Azərbaycanı sonsuz məhəbbətlə sevən vətənpərvər kimi səciyyələndirib, ən xoş arzularını çatdırıblar.

Tədbirdə Polad Bülbüloğlu Müdafiə nazirinin əmri ilə "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı və qiymətli hədiyyə ilə təltif edilib. Yubilyara Beyləqan rayon İcra Hakimiyyəti tərəfindən Qarabağ xalçası hədiyyə olunub.

Polad Bülbüloğlu yubiley konsertində iştirak edən bütün iştirakçılara təşəkkürünü bildirib.

# Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda növbəti qəbul keçirilib

*3 fevral 2020-ci il tarixdə Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursuna növbəti qəbul həyata keçirilib.*



Kursa qəbul olan namizədlər ulu öndər Heydər Əliyev guşəsini ziyarət ediblər.

Açılış mərasimində Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev dinləyiciləri Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayıb və geniş məruzə ilə çıxış edib.

Bildirib ki, bu il Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda 15 dövlət təşkilatının nümayəndələri təhsil alacaqlar.

Son illər ölkəmizin, o cümlədən Silahlı Qüvvələrin həyatında, xüsusən də hərbi təhsil sistemində bir sıra islahatların həyata keçirilməsi ilə yaddaqalan olub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən hazırlanmış "Azərbaycan-2020: gələcəyə bir baxış" İnkişaf Konsepsiyası hərbi təhsil sahəsində də bizim qarşımızda yeni vəzifələr qoyub.

Hərbi Akademiyanın əsas vəzifəsi dövlət orqanlarında çalışan vəzifəli şəxslərə respublikanın müdafiəsi və təhlükəsizliyi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini, ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasını və hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını təmin etməkdir. Bu vəzifələrin yerinə yetirilməsində Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursu xüsusi yer tutur.

Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda tədris prosesi 5 ay müddətində olmaqla, hər ilin fevral-iyun aylarında (21 tədris həftəsi) mühazirələr, seminarlar, qrup çalışmaları və praktiki məşğələlər formasında həyata keçirilir.

Təhsil müddəti ərzində akademik kursun dinləyicilərinə:

- xarici siyasət və milli təhlükəsizliyin əsasları;
- strategiya və müdafiənin planlaşdırılmasının əsasları;
- müdafiə resurslarının idarə edilməsinin əsasları;
- dövlət müdafiəsinin idarə edilməsinin əsasları mövzu blokları üzrə mühazirələr oxunur.

Mövzu bloklarının adlarından göründüyü kimi, akademik kursda tədris olunan mövzular fasiləsiz dəyişən lokal, regional və qlobal təhlükəsizlik mühitindən, milli təhlükəsizliyin müxtəlif istiqamət və səviyyələrindən, iqtisadi və təhlükəsizliyi şərtləndirən amillərdən, daim yeniləşən çağırışlardan bəhs etdiyi üçün kursun tədris proqramı müntəzəm olaraq təkmilləşdirilir. Bu istiqamətdə son dəyişikliklər Strateji Əməliyyat Məharəti fakültəsi tərəfindən 2019-cu tədris ilinin sonunda aparılıb və ötən ilin dekabrında akademik kursun yeni tədris proqramı təsdiq edilib. Bu il akademik kursa qəbul edilən dinləyicilər yeni təkmilləşdirilmiş proqram üzrə təhsil alacaqlar.

Akademik kursun tədris proqramı çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisində, müxtəlif nazirlik və təşkilatlarda, ali təhsil müəssisələrində çalışan yüksək ixtisaslı mütəxəssislər akademik kursda müxtəlif mövzularda mühazirələr oxuyacaqlar.

Eyni zamanda, güc nazirliklərinin mütəxəssisləri kursların tədris proqramına uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması və təşəkkül tapması, onların strukturu, qarşısında duran vəzifələr haqqında və digər mövzularda akademik kursun dinləyiciləri qarşısında çıxışlar edəcəklər.

Hərbi Akademiyanın və akademik kursun tədris proqramlarına müvafiq olaraq, Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun və Əməliyyat-taktiki fakültənin dinləyiciləri Hərbi oyunda iştirak edəcəklər.

Hərbi oyun müddətində akademik kursun dinləyiciləri dövlətin rəhbər vəzifələrini, şərti olaraq, böhran və müharibə şəraitində, Əməliyyat-taktiki fakültənin dinləyiciləri isə müxtəlif komandir və qərargah vəzifələrini, şərti olaraq, müxtəlif döyüş əməliyyatlarında icra edilləcək hər iki kursun dinləyiciləri dövlət müdafiəsinin və döyüş əməliyyatlarının idarə edilməsində müəyyən təcrübə əldə edəcəklər.

Akademik kursun tədris proqramı çərçivəsində Milli Məclisin komitə sədrləri tərəfindən kursun dinləyiciləri qarşısında silsilə mühazirələrin oxunması bir ənənə halını alıb. Ötən tədris illərində Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin, İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin və Əmək və Sosial Siyasət Komitəsinin sədrləri akademik kursun tədris proqramında nəzərdə tutulmuş müvafiq mövzular üzrə dinləyicilər qarşısında mühazirələrlə çıxışlar ediblər. Bu tədris ilində də bu ənənə davam etdiriləcəkdir.

Akademik kursun tədris proqramı çərçivəsində dinləyicilər Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin, Sərhəd Qoşunlarının, Daxili Qoşunların və Fövqəladə Hallar Nazirliyinin hərbi hissələri, Müdafiə Sənayesi Nazirliyinin müəssisələri, Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələri, respublikanın iri yanacaq və energetika kompleksləri, strateji əhəmiyyətli obyektləri və mədəni-tarixi yerləri ilə tanış olacaqlar.

Bu kimi praktiki məşğələlər dinləyicilərin, respublikanın hərbi-sənaye potensialı və Silahlı Qüvvələrin döyüş hazırlığı, mənəvi-psixoloji durumu, məişət şəraiti ilə bağlı təsəvvürlərini daha da genişləndirəcəklər.

Xarici dövlətlərin, o cümlədən Türkiyə Respublikası, Rumıniya, Pakistan İslam Respublikası və Əfqanıstan İslam Respublikası Silahlı Qüvvələrinin zabitlərinin Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunda təhsil alması Hərbi Akademiyanın beynəlxalq əməkdaşlığının göstəricisidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün müasir tələblərə cavab verən ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlanması, hərb elminin təşkili və inkişaf etdirilməsi, ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Silahlı Qüvvələrlə mülki dövlət qurumlarının birgə fəaliyyətinin təşkili məsələləri bundan sonra da Hərbi Akademiyanın fəaliyyətinin əsas istiqamətləri olacaqdır.

**Polkovnik**
**Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin Hərbi Akademiyasının fakültə rəisi**

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Cəmşid Naxçıvanski adına Hərbi Liseydə olub



*Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə tanışlıq səfəri təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 13 dövlətin hərbi attaşelik aparatının 16 nümayəndəsinə əvvəlcə Hərbi liseyin tarixi və fəaliyyəti barədə ümumi brifinq təqdim edilib. Sonra qonaqlar liseydəki tədris prosesi ilə tanış olub.

Hərbi attaşelər ziyarətin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan hərbçiləri Moskvada keçiriləcək hərbi paradda iştirak edəcək



Azərbaycan Ordusunun hərbi qulluqçuları mayın 9-da Moskvada Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəklər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təntənəli mərasimdə ölkəmizi Azərbaycan Ordusunun bayraqdarları və 75 hərbi qulluqçudan ibarət heyəti təmsil edəcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 fevral 2020-ci il.* Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!” devizi altında vətənpərvərlik tədbiri

*"Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı tədbirlər planı çərçivəsində cəbhəyanı bölgədəki hərbi hissələrdən birində "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" devizi altında vətənpərvərlik tədbiri keçirilib.*



Növbəti təlimi uğurla başa vuran tankçılar fasilə zamanı bir yerə toplaşaraq iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsini ehtiramla yad edib və xalqımızın qəhrəman oğlunun, unudulmaz sərkərdənin davamçıları olaraq Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tankçılar qarşısında çıxış edən Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani bildirib ki, respublikamızın bütün bölgələrində, eləcə də Həzi Aslanovun faşist işğalından azad etdiyi keçmiş ittifaqın şəhər və rayonlarında xalqımızın yetirdiyi görkəmli sərkərdənin yubileyi təntənə ilə qeyd edilir. Prezidentin bu tarixi Sərəncamı bütün xalqımız kimi Azərbaycan Ordusunun şəxsi heyətinin də böyük ruh yüksəkliyinə səbəb olub.

A.Qurbani Böyük Vətən müharibəsi cəbhələrində "Cinahlardan zərbə ustası" kimi tanınan Həzi Aslanovun hərbi elmi məqalələri və hərb tarixindəki yenilikləri barədə ətraflı məlumat verib və bu yeniliklərin bu gün də tankçılarımızın müasir orduda istinad etdiyi, peşə təcrübəsindən bəhrələndiyi bir mənbə kimi səciyyələndirilib.

Polkovnik Elşad Əbilov orta məktəbdə oxuduğu illərdə qəhrəmanın Lənkəran şəhərindəki ev muzeyində olduğu günü xatırlayaraq deyib: "Mənim hərbi peşəyə marağım məhz Həzi Aslanovun ev muzeyini ziyarət etdiyim gündən başlandı. Söz verdim ki, mən də zabit olacam, öz həyatımı Vətənə xidmət peşəsinə həsr edəcəyəm. Tale elə gətirdi ki, mən Latviya respublikasında Sovet İttifaqı marşalı S.S.Biryüzov adına Riqa Ali Hərbi Siyasi Məktəbinə daxil oldum. Həzi Aslanovun Belarusiyadakı uğurlu döyüşlərdən sonra Birinci Pribaltika cəbhəsində tank briqadasına komandirlik etdiyi və Liepaya şəhərində həlak olduğu barədə məlumatım var idi. Digər azərbaycanlı kursantlarla həmin şəhərə getdik, generalın müəmmalı şəkildə həlak olduğu yeri ziyarət etdik və söz verdik ki, Həzi Aslanov kimi doğma Azərbaycanımıza həmişə başucalığı gətirəcək, xalqımızın yüksək mənəvi, iradi keyfiyyətlərə malik olduğunu bütün dünyaya göstərəcəyik. Mən artıq arzuma çatmışam. Həzi Aslanovun bütün həmyerliləri də cəbhə bölgələrində Vətən torpaqlarının keşiyində durmaqdan böyük qürur duyur və fəxr edir".

2016-cı ilin Aprel döyüşlərində göstərdiyi şəxsi şücaətə və qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi xidmətlərə görə "İgidliyə görə" medalı ilə təltif olunmuş igid tankçı Paşa Mehdiyev nəzərə çatdırıb ki, bu gün Azərbaycan Ordusunda Həzi Aslanov kimi peşəkar tankçılar yetərincədir. Onlar xalqımıza qələbə sevincini yaşadan Aprel döyüşləri zamanı Həzi Aslanovun layiqli davamçıları olduqlarını bir daha təsdiq etdilər. Biz tankçılar sanki döyüşə deyil, toya-bayrama gedirdik. Düşmənlər silah-sursatlarını, yaralı döyüşçülərini geridə buraxaraq qaçmağa məcbur olmuşdular. Həmin döyüşlərdə göstərdiyi igidliyə görə "Vətən uğrunda" medalı ilə təltif olunan komandirimiz Vilayət Quliyev Həzi Aslanovun hərbi fəndlərindən çox məharətlə istifadə etdi. Gizir Azad Mərdəliyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Tofiq Babayev və Cavad Cavadov əsl qəhrəmanlıq nümunələri göstərdilər. Biz hər birimiz Həziyik. Peşəkarlığımızı, nəzəri bilik və praktiki vərdişlərimizi durmadan artırır və hər an Ali Baş Komandanın əmrlərinə hazırıq!

Həzi Aslanov haqqında "Həzilər yurdu", "Tankçılar marşı" ifa olunub, əfsanəvi sərkərdə haqqında şeirlər söylənilib və "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" devizi altında vətənpərvərlik tədbiri sona yetib.

# Milli Qəhrəman Mübariz İbrahimovun məzarı ziyarət olunub

*Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə anım mərasimi keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, ictimaiyyət nümayəndələri, məktəblilər və gənclər iştirak etdilər.*






Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra hərbi qulluqçular qəhrəmanın məzarını ziyarət edərək önünə gül dəstələri qoydular.

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 1994-2005-ci illərdə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbində təhsil alıb. Orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" hərbi hissəsinin xüsusi təyinatlı bölüyündə keçib. Həqiqi hərbi xidmətdən 2007-ci ildə çavuş rütbəsində tərxis olunan Mübariz İbrahimov bir müddət mülki işlərdə çalışıb. 2009-cu ilin avqust ayından yenidən ordu sıralarına qayıdaraq gizir hərbi rütbəsində xidmət etməyə başlayıb. Bir müddət sonra isə öz xahişi ilə cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin bölmələrindən birində xidmətini davam etdirib. 2010-cu il iyunun 18-dən 19-a keçən gecə gizir Mübariz İbrahimov düşmənlə qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.

Qəhrəmanın məzarı önündə çıxış edənlər Azərbaycanın tarixən öz qəhrəman oğulları ilə seçildiyini, doğum günü qeyd edilən Mübariz İbrahimovun da qanında, canında qəhrəmanlıq, mübarizlik hissi olduğunu bildirdilər. Öz şücaəti ilə ömrünün gənclik çağında tarixə və gənc nəslin qəlbinə adını yazmış qəhrəmanın ölməzlik qazandığı, sonsuz Vətən sevgisinin onu şəhidlik zirvəsinə ucaltdığı diqqətə çatdırıldı. Bu igid gizirimizin göstərdiyi rəşadətin ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək dəyərləndirildiyi, ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətlərinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldüyü vurğulandı.

Çıxışçılar Mübariz İbrahimovun qəhrəmanlığından danışmaqla yanaşı, onun Vətənin keşiyində duran əsgər və zabitlər üçün örnək olduğunu xüsusi qeyd etdilər, öz şəxsi nümunəsi ilə böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyələnməsinə, yurdumuzun müdafiəçilərinin döyüş ruhunun, əzmkarlığının artmasına töhfələr verdiyini diqqətə çatdırdılar.

Vurğulandı ki, Mübariz İbrahimovun keçdiyi döyüş yolu və misilsiz şücaəti, vətənpərvərliyi ordu sıralarında xidmət edən hər bir gənc üçün qəhrəmanlıq nümunəsidir. Mübariz adını xalqımızın yaddaşına əbədi həkk etməyi bacardı. Mübariz üçün Vətən hər şeydən üstün, qiymətli, uca idi.

Keçirilən anım tədbirində bir daha əmin olduq ki, torpaqlarımızın azadlığı uğrunda şəhid olanlar heç vaxt unudulmur. Mübariz kimi oğullar adlarını xalqımızın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazıblar. İnanırıq ki, şəhidlərimizin ruhunu ehtiramla yad edən, onu daim uca tutan gənclərimiz də gələcəkdə Mübariz kimi mübariz olacaqlar. Bu gün əsl qəhrəmanlıq salnaməsi yaradan Mübariz cismən aramızda olmasa da, xalqımızın qəlbində əbədi yaşayacaq!

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il fevralın 3-dək 107 milyon 345 min 468,57 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.*

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Mübarizlik odasıdı "Mübariz"



Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu. Ağdamda Əli ilə Bəxtiyara atılan güllələrdən üzü bu yana şairlər, yazıçılar ədəbiyyatı müharibəyə səfərbər edə bilmədilər. Müharibə ədəbiyyatı da müsəlləh əsgər ola bilmədi...

Şahin Musaoğlunun poema ("yaxşı" təyiniylə qoşa işlədilməklə!) biçimli "Mübariz" librettosu Qarabağ müharibəsindən yazılan irihəcmli ilk musiqili əsərdi...

Gizir Mübariz İbrahimovun qəhrəmanlığı mübarizlik ifadəsinə yeni bir çalar gətirdi, yeni bir təyin yaratdı - mübarizləşmək. İnandıq ki, mübarizləşmək mübarizləşməkdi. Dünya gördü və əmin oldu ki, Mübarizlər "qara daşları göyərdə bilir", həm də şərin qolunu qırmağa, gözünü tökməyə, boynunu vurmağa qadirdi. Bu xarakterinə görə Mübarizlər bəşəriliyin bayraqdarıdı. "İgid əsgər, möhkəm dayan!", "Cənab leytenant", "Birinci batalyon", "Şahinlər", ... kimi məfkurəvi mahnıların müəllifi (həm şair olaraq, həm də bəstəkar) Şahin Musaoğlunun "Mübariz" əsərini bu düşüncələrin işığında izlədim və poetik duyumuna, poetik təfəkkürünə ruhən bələd və bağlı olduğum Şahin Musaoğlunun bu əsərini min-min illərin o üzündən gələn səs kimi dinlədim (və oxudum!).

El deyimləri publisistikada da, nəsrdə də, poeziyada da düşüncələri tərpədir (Şahin Musaoğlunun "Mübariz" əsərində: Başın üstə acı yellər əsməsin, Mətləbini, murazını min budaq eylə, Nurunu yoluyca şam-çıraq eylə, Ocağının işığı (istisi), evimin yaraşığı, ata yurdunda binə (bina, ev, mülk) qursun və.s. Bu ifadələr Dədə Qorqud ruhu kimi dinləyənin də, oxuyanın da düşüncələrinə sarılır). Bu tərpəniş Vətən sevgisiylə incəliklə qovuşur. Bu qovuşmanın mahiyyəti dövlətçiliyə sədaqətdi. Son illərin ədalətini (əsərdə: Ədalət deyib gəlirəm) tələb edən Mübarizin ruhu sədaqət deyir: Vətən naminə sədaqət (əsərdə: Sədaqət - Vətən naminə). Bu sədaqət şəhidlikdən də keçir. Şəhidlik sədaqətin əbədiyyətə zəmanətidi; Şahin Musaoğlunun "Mübariz" əsəri qəhrəmanlığın ədəbiyyat vasitəsilə əbədiləşdirilməsinə zəmanət kimi oxunur.

Şahin Musaoğlunun təqdimatında Mübarizin həyat fəlsəfəsini ifadə edən misralar Mübarizlik - mübarizlik amalıdı. Bu amalın bircə yozumu var: Qələbə, Böyük Qələbə. Hər kəlmənin öz məzmunu var, bəzən bu məzmun mahiyyət baxımından fərqlənir. "Mübariz" əsərində "gəlmək" feli "ömründən qopub Vətənin müdafiəsinə çatmaq" kimi dərk edilməlidir (edilir).

Həqiqət deyib gəlirəm,
Ədalət deyib gəlirəm,
Hürriyyət deyib gəlirəm,
Sədaqət - Vətən naminə.

Sədaqətin başlanğıcı fərdin özünüdərkidi, sonu son nəfəs. Bu sədaqəti ömrə tən bilənlər üçün son nəfəs Vətən naminə şəhidlikdi:

Bayrağa and içib gəlləm,
Şəhidliyi seçib gəlləm,
Şəhadət - Vətən naminə.

Mahiyyətin, ideyanın açılması baxımından "Mübariz" kimi ədəbi (həm də tarixi!) əsərlərdə obrazlar tarixiliklə səsləşməyə də bilər (Bu fikri bir məqamın inandırıcılığına görə deyirəm).

Əsərdə çağırışçıların hərbi xidmətə yolasalma mərasimində yaddaqalan bir şərtilik var. Bu şərtilik Mübariz obrazının (tarixi şəxsiyyət kimi qəhrəmanın - Mübariz Ağakərim oğlu İbrahimovun) duyğuları haqqında təəssürat yaratma niyyətidi. Bu niyyət təkcə Ağakərim oğlu Mübarizlə məhdudlaşmır, bu niyyət müharibəyə şair etirazıdı. Camaatdan bir qədər aralı (milli mentalitet baxımından dəyərli, qibtəediləsi ədəbi (bədii) detaldı: bura gəlməməyi bacarmamaq sevdadandı, gəlib uzaqda dayanmaq - azərbaycançılıqdan) dayanması yaddaşımı tərpədir; 79 ildi şeir kimi, 76 ildi mahnı kimi düşüncələrdə sultanlıq edən "Gözlə məni" düşür yadıma. Şahin Musaoğlunun "Mübariz"i deyir ki, Ağakərim oğlu Mübariz "Gözlə məni" deməyə macal tapmadı. Çağırışçıları hərbi xidmətə yolasalma mərasimində camaatdan həyalanan qızın "Xoş müjdəli bir sabahdan pay ver mənə" (rica kimi, xeyir-dua kimi oxu: Qələbəylə qayıt!) kəlmələrini Şahinin təqdimatında ictimaiyyətin əsgərdən gözləntisi bilirik...

"Mübariz" əsərinin ruhu vətənsevərlikdi. Səməd Vurğunun "Vaqif" dramında Eldar obrazını xatırlayıram. İstibdada, işğalçılığa üsyan ruhu "Mübariz"də də var. Bu, ruhların doğmalığıdı, eyni kökdən - azərbaycançılıqdan rişələnməsidi; Eldar da ümumiləşmiş obrazdı, tarixi şəxsiyyət olmaq etibarilə Mübariz də. Şahin Musaoğlunun təbirincə desək, Vətən naminə.

Mübarizlərin, Mübarizləri sevənlərin, "Mübariz"də mübarizliyi sevənlərin Vətən sevgisini Vətən sevgimizə üzərlik bilirik - Vətən naminə. Şahin Musaoğlunun "Mübariz"i deyir ki, Mübarizlər şəhid ola bilər - şəhadət, şəhidlik Vətən üçündü. Vətən yaşayacaq, şəhidşəhid qorunan Vətən naminə əsərlər də yazılır. "Mübariz" onlardan biridi. Həm də bədii dəyəriylə boyu görünən əsər kimi dəyərlidi. Həm də mahiyyəti mübarizliyin - Mübarizliyin Vətənə nə dərəcədə gərəkliyini xatırlatmasıyla dəyərlidi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Rusiya XİN: Bu ilin yanvarında Suriyada Rusiya və Türkiyə hərbi mütəxəssisləri həlak olublar



Bu ilin yanvarında Suriyada Rusiya və Türkiyə hərbi mütəxəssisləri faciəli şəkildə həlak olublar.

Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda deyilir ki, Rusiya və Türkiyə hərbçiləri İdlibdə növbəti dəfə sabitlik yaratmağa cəhd göstəriblər. Lakin terrorçular nəinki hərbi fəallığını azaltmayıb, əksinə, hücumların sayını artırıblar. Təkcə son iki həftə ərzində məndən çox hücum faktı qeydə alınıb, Rusiya və Türkiyə hərbi mütəxəssisləri faciəvi şəkildə həlak olublar. XİN Rusiyanın Astana formatı çərçivəsində əldə olunmuş razılıqlara riayət etdiyini, Türkiyə və İran ilə sıx əlaqələndirməni davam etdirdiyini təsdiqləyib.

### Misir Silahlı Qüvvələri Yaxın Şərq və Afrikanın ən güclü ordusudur



Nüfuzlu "Global Firepower" hərbi-analitika təşkilatı 2020-ci ildə dünyanın ən yaxşı ordularının reytingini açıqlayıb. "Egypttoday" portalı xəbər verir ki, 138 ölkənin ordusu arasında 9-cu yeri tutan Misir Silahlı Qüvvələri Yaxın Şərq və Afrikanın ən güclü ordusu hesab edilib. Bu, 2019-cu ildə olan göstəricidən üç pillə yüksəkdir.

Qeyd edək ki, Misir Silahlı Qüvvələrinin personalı 920 min nəfərdir. Təkcə Hərbi Hava Qüvvələrinin malik olduğu texnikanın sayı 1,054 ədəddir. Quru qoşunlarında isə 4,295 ədəd tank, 11,700 hərbi maşın, 1,084 raket əleyhinə qurğu mövcuddur. Misirin hərbi büdcəsi 11 milyard 200 milyon dollardır.

Reytinq cədvəlində dünyanın ən güclü ordusu ABŞ Silahlı Qüvvələri hesab edilib. Rusiya ikinci, Çin isə üçüncü yerdədir.

### İran İslam İnqilabının Keşikçiləri Korpusunun sərəncamındakı helikopterlər raketlə təchiz edilir



İran İslam İnqilabının Keşikçiləri Korpusunun Hava Hücumundan Müdafiə Qüvvələrinə məxsus helikopterlər yeni raket sistemləri ilə təchiz olunur.

İran istehsalı olan hava-yer tipli "Bel-214" raketləri hədəfləri dəqiq vurmaq imkanına malikdir.

"Tasnim" agentliyi yazır ki, yeni raketlərin başlıqları olduqca güclüdür və 1000 millimetr qalınlığında zirehi dağıda bilir. Helikopterlər aşağı hündürlükdə uçaraq bu raketlərlə düşmənin hərbi texnikasını məhv etmək iqtidarındadır.

İran mətbuatı yazır ki, ölkəni təhdid etmək üçün Körfəzə daxil olan düşmənin hərbi gəmilərini məhz yeni raketlərlə vurmaq mümkündür.

### Çində koronavirusa yoluxanların sayı 31 mini ötüb



Çində koronavirusun yeni növünə yoluxanların sayı 31,1 mini ötüb, bu xəstəlikdən 636 nəfər ölüb, 1540 nəfər sağalıb. Bu barədə Çinin Gigiyena və Səhiyyə Məsələləri Dövlət Komitəsi məlumat yayıb. Mərkəzi hökumət orqanlarının məlumatına görə, ölkədə 186 mindən çox insan karantindədir.

Ən çox yoluxma halı (22,1 min) Xubey əyalətindədir. Orada 618 nəfər ölüb, 817 insan sağalıb. Xəstələrlə təmasda olmuş 64 mindən çox insan həkimlərin daim nəzarətindədir. Çjetszyan (970 nəfər yoluxub) və Quandun (954 nəfər yoluxub) əyalətlərində virusdan ölüm halı qeydə alınmayıb, müvafiq olaraq 70 və 91 nəfər sağalıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

# Kobra (Cobra) döyüş maşını





Kobra (Cobra) təkərli döyüş maşını Amerikanın "AM General" şirkətinin iştirakı ilə Türkiyənin "Otokar" şirkəti tərəfindən hazırlanıb. Zirehli maşının hazırlanmasına 1994-cü ildə başlanıb. 1995-ci ildə onun hazırlanması layihəsinə Amerikanın "AM General" şirkəti də daxil edilib. 1995-ci ilin aprelində zirehli avtomobilin ilk oxşarı hazırlanıb və 1997-ci ildə başa çatıb. Bir müddət sonra onun üzən variantı da işlənilib. Maşının V şəkilli gövdəsi onu yüngül atıcı silahlardan, artilleriya qəlpələrindən, piyada və tank əleyhinə minalardan və əldəqayırma partlayıcı qurğulardan qorunmağını təmin edir. Silahlanmasına tank əleyhinə "Skif" raket kompleksi daxil edilib.

"Cobra"nın bir neçə variantları da işlənilib. Onlardan biri zirehli kəşfiyyat maşınıdır. Üzərində 7,62 mm-lik pulemyot, 12,7 mm-lik Brovninq M2HB pulemyotu və ya 40 mm-lik avtomat Mk.19 qumbaraatanı quraşdırılıb. 2000-ci ildə isə mühəndis-istehkam bölmələri üçün EOD BRAAT zirehli maşını hazırlanıb və burada isə qüllədə pulemyot əvəzinə, 12,7 mm-lik M72A1 snayper tüfəngi bərkidilib. Daha bir variantı Cobra 20 mm-lik cannon qarrierdir ki, qülləsində 20 mm-lik Nexter Systems, 20 mm-lik M621 topları yerləşdirilib.

Bundan başqa 11 nəfərlik desant bölməsi üçün hazırlanmış zirehli transportyor, ARS-2000 radiostansiyalı ARSV komanda-qərargah maşını, sanitar maşını, WW TOW buraxıcı qurğulu tank əleyhinə variantları da mövcuddur.

Zirehli maşının çəkisi 6,3 ton, heyəti bir nəfər və səkkiz desantdan ibarətdir. Onun gövdəsinin uzunluğu 5225 mm, eni 2235 mm, hündürlüyü 2100 mm, mühərrikinin gücü 190 at gücündədir. Maşının şose yolda sürəti saatda 115 kilometr təşkil edir. Təkər formulu 4x4-dür.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə “Hərbi həkim işi” ixtisası üzrə 2020-2021-ci tədris ili üçün qəbul qaydaları

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili.
Təhsil forması: əyani.
Təhsil müddəti: 6 il.
Yaş həddi: Qəbul ilinin 15 sentyabr tarixinədək 16 yaşı tamam olan və 23 yaşı tamam olmayan ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilir.

**II. Sənədlərin qəbulu:**
"Hərbi həkim işi" ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2020-ci il tarixdən 30 aprel 2020-ci il tarixədək ərizə ilə fakültə rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün orta məktəbdən verilmiş arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.

Qeyd: Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.

**III. Hərbi Tibb Fakültəsinə qəbul aşağıdakı qaydada həyata keçirilir:**
Namizədlər yaradılmış hərbi həkim komissiyasında müayinədən keçməlidirlər.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasında müayinədən Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Hərbi həkim işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasında müayinədən müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması fakültə rəisinin sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Namizədlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı (Azərbaycan dili, riyaziyyat, xarici dil) fənləri üzrə, ikinci mərhələdə isə IV ixtisas qrupunun (biologiya, kimya, fizika) fənləri üzrə Azərbaycan dilində keçirilir.

Namizədlər Hərbi Tibb Fakültəsinə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarının nəticələri əsasında qəbul edilirlər.

Hərbi Tibb Fakültəsinə qəbul olmuş şəxslər 4-cü kursadək Azərbaycan Tibb Universitetində, son 2 ili isə hərbi andı qəbul edərək Hərbi Tibb Fakültəsində təhsil alır və bütün növ təminatlarla təmin edilirlər.

Hərbi Tibb Fakültəsinə qəbul olmuş şəxslər təhsil müddətində 4-cü kursadək ayda 75 AZN, son 2 ili isə ayda 181 AZN məbləğində müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində yaradılmış komissiya tərəfindən qəbul olunur (ünvan: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 431-39-73).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə “Hərbi feldşer işi” ixtisası üzrə 2020-2021-ci tədris ili üçün qəbul qaydaları

**I. Ümumi müddəalar:**
Tədris dili: Azərbaycan dili.
Təhsil forması: əyani.
Təhsil müddəti: 2 il.
Yaş həddi: Cari ildə ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2020-ci ilədək 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan, habelə 23 yaşınadək hərbi vəzifəli Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

**II. Sənədlərin qəbulu:**
"Hərbi feldşer işi" ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2020-ci il tarixdən 30 aprel 2020-ci il tarixədək ərizə ilə Fakültə rəisinə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya gələrkən şəxsən təqdim edilir.

**III. Hərbi Feldşer İşi İxtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul aşağıdakı qaydada həyata keçirilir:**
Namizədlər Silahlı Qüvvələrin Baş Klinik Hospitalında hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müraciət edən şəxslərin məhkumluğu barədə arayışın alınması Fakültə rəisinin sorğusuna əsasən Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən həyata keçirilir.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

“Hərbi feldşer işi” ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə Azərbaycan dilində keçirilən qəbul imtahanları Azərbaycan dili və kimya fənləri üzrə aparılır.

“Hərbi feldşer işi” ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 245 AZN məbləğində müavinət alırlar.

Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur (ünvan: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi, 3. Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ərazisi. Əlaqə telefonu: 431-39-73).

Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).

Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunduqdan sonra əlavə olaraq bildiriləcək.

# İdman

## Pankration, grappling və MMA üzrə açıq Bakı çempionatı keçirilib



Hövsan Olimpiya İdman Kompleksində Bakı Şəhər Gənclər və Baş İdarəsi (BŞGİBİ) və Azərbaycan Pankration, Grappling və MMA Federasiyasının birgə təşkilatçılığı ilə pankration, grappling və MMA üzrə açıq paytaxt çempionatı keçirilib.

Yarışda Bakı və bölgələrdən 30-dan çox klub və cəmiyyəti təmsil edən 400-dən çox idmançı mübarizə aparıb. Yarışın qalibləri Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

## Kişi cüdoçularımız Polşada Avropa kubokunda bütün çəki dərəcələrində mübarizə aparacaqlar



Fevralın 29-dan martın 1-dək Polşanın paytaxtı Varşavada cüdo üzrə Avropa kuboku turniri keçiriləcək.

Turnirdə kişilərin yarışlarında Azərbaycan cüdoçuları 7 çəki dərəcəsinin hamısında 12 idmançı ilə təmsil olunacaqlar. Qadın cüdoçuların yarışında isə üç çəki dərəcəsində dörd idmançımız mübarizə aparacaq.

Turnirdə 31 ölkədən 300-dək idmançı iştirak edəcək.

## MMA idmançımız Vüqar Kərəmov Rizin Qran-prisində debüt edəcək



Fevralın 22-də MMA (qarışıq döyüş növləri) üzrə idmançımız Vüqar Kərəmov Yaponiyada döyüş keçirəcək.

Rizin Qran-prisi çərçivəsində keçiriləcək qarşılaşmada idmançımızın rəqibi Quam döyüşçüsü Kayl Aquon olacaq. Döyüş Hamamatsu şəhərində baş tutacaq.

Qeyd edək ki, V.Kərəmov Rizin Qran-prisində debüt edəcək. O, bundan əvvəl "Bellator"da mübarizə aparıb. 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarının uşusanda yarışlarında gümüş medalına layiq görülən V.Kərəmov karyerası ərzində 17 döyüş keçirib, 14-də qələbə qazanıb, 3-də isə məğlub olub. K.Aquon isə 21 döyüşün 13-nü qələbə, 8-ni məğlubiyyətlə başa vurub.

## Azərbaycanın pencak-silat millisi ABŞ-da keçiriləcək 44-cü Dünya Döyüş Oyunlarında iştirak edəcək



Martın 6-8-də ABŞ-da məşhur idmançı Arnold Şvartseneggerin şərəfinə 44-cü Dünya Döyüş Oyunları keçiriləcək. Pencak-silat idman növü mötəbər turnirdə debüt edəcək.

Turnirdə pencak-silatla yanaşı, cüdo, taekvondo, karate, sambo, uşu, kunq-fu və digər döyüş növləri üzrə yarışlar təşkil olunacaq.

Azərbaycan Sindo-ryu və Pencak-silat Federasiyasının vitse-prezidenti Abbas Hünbətov yığma komandamızın üzvlərinin mötəbər yarışa qatılacaqlarını deyib.

Bildirib ki, Azərbaycanın pencak-silatçıları dünyada ciddi rəqib kimi qəbul olunurlar. Millimizin üzvləri arasında Avropa və dünya çempionatlarının qalib və mükafatçıları var. Ümid edirəm ki, idmançılarımız ABŞ-da təşkil olunacaq Dünya Döyüş Oyunlarında da uğurla çıxış edib, qazandıqları medallarla xalqımızı sevindirəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan İsrafilov Kənan Faiq oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 50
Nüsxə 3900